Oktyabr / 2020

# “QARABAĞA BÖYÜK QAYIDIŞ" HESABAT

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

Oktyabr 2020

# "QARABAĞA BÖYÜK QAYIDIŞ"

## HESABAT

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti

Bakı - 2020

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində
4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Redaktor:**
Aqşin Məmmədov

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

# MÜNDƏRİCAT


**İCMAL**....................................................................................................................................4

**Giriş**........................................................................................................................................5

**Tədqiqatın metodoloji prinsipləri**...........................................................................................6

**Sorğu nəticələrinin statistik və analitik təhlili**........................................................................7

**NƏTİCƏ**.................................................................................................................................13

❑ Bir il öncə Ermənistanın davam edən hərbi təxribatları fonunda 2020-ci ildə müharibənin daha geniş miqyasda başlayacağını 57.3% respondent gözlədiyi halda, 42.7%-in belə gözləntisi olmayıb.

❑ Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatının geniş miqyasda başlamasına əsas səbəb kimi aşağıdakılar göstərilir: Son 3 ayda ermənilər tərəfindən törədilən hərbi təxribatlar (57.3%); Bir il bundan əvvəl Ermənistan baş nazirinin öz bəyanatları ilə (Qarabağ Ermənistandır.) danışıqların faydasız olduğunu göstərməsi (48.5%); Xalqın torpaqların tezliklə işğaldan azad olunmasını istəməsi/tələb etməsi (46.3%).

❑ Respondentlərin 62.1%-i əks-həmlə əməliyyatlarının vaxtında başladığını, 33.4%-i əks-həmlə əməliyyatlarının gecikdiyini düşünür.

❑ Respondentlərin mütləq əksəriyyəti (96.3%) torpaqların danışıqlar yolu ilə qaytarılacağını mümkünsüz hesab edir.

❑ Son 28 ildə Ermənistanla aparılan danışıqların heç bir nəticə verməməsinin səbəbləri kimi aşağıdakı amillər göstərilir: Qlobal güclərin problemin həllində maraqlı olmaması (69%); ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti (57.1%); Ermənistan dövlətinin işğalçılıq siyasəti (72.7%).

❑ Məcburi köçkün respondentlərin böyük əksəriyyəti (84.1%) müharibənin davam etdirilməsini istəyir. Cəmi 13.2% respondent əks mövqedən fikir bildirib.

❑ Sorğuda iştirak edən məcburi köçkün düşdüyü yaşayış yeri işğaldan azad olunan respondentlərin 97.9%-i məcburi köçkün düşdükləri yaşayış yerlərinin (şəhər, qəsəbə, kənd) yaxın gələcəkdə azad olunacağına ümid edir.

❑ Yaşadıqları ərazi işğaldan azad olunmayan məcburi köçkünlərin mütləq əksəriyyətində də (97.5%) bu ümid var.

❑ Respondentlərin 93.8%-i yaxın gələcəkdə bütün ərazilərin işğaldan azad olunacağına inanır.

❑ Respondentlərin mütləq əksəriyyəti (95.9%) heç bir xarici dövlətin dəstəyi olmadan Azərbaycan ordusunun ərazi bütövlüyümüzü bərpa edəcəyinə inanır.

❑ Respondentlərin 98%-i yaxın gələcəkdə azad edilmiş rayonlarına qayıtmağı planlaşdırır.

❑ Gənc respondentlərin 96%-i işğaldan azad olunan ərazilərə qayıtmağı planlaşdırır.

❑ Respondentlərin böyük əksəriyyəti, yəni 83.2%-i işğaldan azad olunmuş yurd yerlərinə bütün ailə üzvləri ilə birgə qayıtmağı planlaşdırır.

❑ Sorğuda iştirak edən məcburi köçkünlərin demək olar ki hamısı (99%) bildirib ki, torpaqların azad olunması onlarda nikbinlik və evə qayıtmaq əhval-ruhiyyəsi yaradıb.

❑ Respondentlərin yarısı (51.1%) işğal altında olan ərazilərdəki evinin açarlarını/sənədlərini saxlamaqdadır. Rəyi soruşulanların 48.9%-i isə saxlamayıb.

❑ Respondentlərin 86%-i işğal altında olan, eləcə də artıq azad edilən ərazilərimizin hazırkı təsvirlərini (şəkil, video və s.) görsə də, 13%-i bu görüntüləri görməyib.

❑ İnfrastrukturu pis qiymətləndirən respondentlərin mütləq əksəriyyəti (91%) bu qənaətdədir ki, Ermənistan hakimiyyəti həmin ərazilərdə uzun müddət qala bilməyəcəyini düşündüyündən, həmin ərazilərə sərmayə qoymaqdan çəkinib.

❑ 62% respondent hesab edir ki, Ermənistanın işğal etdiyi bütün əraziləri abadlaşdırmaq üçün kifayət qədər vəsaiti olmadığı üçün dağıtdıqları əraziləri abadlaşdırmır.

❑ Məcburi köçkün respondentlərin 72%-i digər etnik azlıqlar kimi Qarabağda erməni əhalisi ilə birgəyaşayışın qeyri-mümkün olduğunu düşünsə də, 14% bu halın yalnız uzun müddətdən sonra mümkün olacağı qənaətindədir.

❑ Hər 20 respondentdən biri (5.2%) əvvəllər də o torpaqlarda ermənilərlə birgəyaşayış olduğuna görə gələcəkdə də ola biləcəyi fikrindədir.

❑ 90.3% respondent şəxsən özü gələcəkdə o torpaqlarda ermənilərlə birlikdə yaşamayacağını, təxminən 8% respondent isə yaşaya biləcəyini bildirib.

❑ İstər erməni xalqına (99.4), istərsə də Ermənistan dövlətinə (99.4%) münasibət birmənalı olaraq pisdir.

❑ 4.5% respondentin erməni xalqına münasibəti neytraldır.

❑ Respondentlərin mütləq əksəriyyəti (97.8%) müharibənin Xalq-Ali Baş Komandan birliyini gücləndirdiyini düşünür.

❑ 96.6% respondent müharibənin Xalq-Ordu birliyini gücləndirdiyi fikrindədir.

❑ Respondentlərin 95.5%-i müharibənin milli birliyi gücləndirdiyini düşünür.

❑ Respondentlərin yarısından bir qədər çox hissəsi, yəni 56.7%-i müharibənin iqtidar-müxalifət birliyini gücləndirdiyini bildirsə də, 19.4% bu haqda fikir bildirməkdə çətinlik çəkib.

# GİRİŞ

Qonşu Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üzərində davam edən münaqişəsi keçmiş Sovet İttifaqının tənəzzülə uğraması ilə eyni vaxtda başlayıb və regionda ən böyük qaçqın və məcburi köçkün axınlarının yaranmasına gətirib çıxarıb. Azərbaycan dünyada adam başına düşən məcburi köçkün əhalisinin sayına görə ən yüksək göstəricilərdən birinə malikdir, təəssüf ki, məcburi köçkünlük müstəqillikdən sonra uzun illər ərzində dövlətimizi xarakterizə edən əsas əlamətlərdən biri olub.

Bu gün rəsmi statistik məlumatlara əsasən, Azərbaycandakı məcburi köçkünlərin 86%-i şəhərlərdə, əsasən Bakı və Sumqayıtda yaşayır. Son illərdə hökumət məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əsaslı addımlar atmışdır. Əsas nailiyyətlərdən biri "çadır düşərgələrinin" 2007-ci ilin sonuna qədər ləğv edilməsi və Azərbaycanın rayonlarında 100-dən çox şəhərciyin salınması olmuşdur. Son 18 ildə məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş 102 müasir qəsəbə salınıb, çoxmərtəbəli binalar inşa olunub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqların nəticəsiz qalması ucbatından ötən 30 il ərzində xalqın Qarabağ həsrəti dinməmiş və ərazi bütövlüyümüzün bərpasına inam hər keçən gün daha da artmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun dinc əhalimizə qarşı həyata keçirdiyi hücumlara qarşı Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatlarına başlaması xəbərini sevinclə qarşılayan xalqda büyük ruh yüksəkliyi və vətənpərvərlik hissi ilə Qarabağın geri qayıdacağına, bununla da məcburi köçkünlük vəziyyətinin dəyişəcəyinə inam yarandı. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusunun irəliyə doğru qətiyyətli, uğurlu addımları bizi bundan dörd il əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə ilk addımları atılan böyük qayıdış mərhələsinə yaxınlaşdırır.

II Qarabağ müharibəsinin gətirdiyi mühüm dəyişikliklər Azərbaycan xalqının, xüsusilə də uzun müddət məcburi köçkünlük vəziyyətinə məhkum olan soydaşlarımızın böyük sevinc hissi ilə qarşılanır. Bu, təkcə düşmən tapdağından xilas olan bir kəndə, yurda və od-ocağa qayıdış deyil, həm də Dağlıq Qarabağa və erməni təcavüzünə məruz qalan digər yurdlarımıza dönüşün başlanğıcıdır.

Bu prosesləri və məcburi köçkün statusuna malik əhali arasında yaranan gözləntiləri nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi həmin əhali qrupu arasında rəy sorğusu təşkil edib. Sorğunun əsas məqsədi respondentlərin müharibə və onun nəticələri ilə bağlı gözləntilərni, məcburi köçkün ailələrinin azad edilmiş torpaqlara qayıdış planlarını, ermənilərə və onlarla birgəyaşayışa, həmçinin müharibə şəraitində Azərbaycan ordusu və dövlətinin xalqla birliyinə münasibətini öyrənməkdən ibarət olub.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

### Tədqiqat əraziləri və respondentlərin seçimi

Sorğu Qobu qəsəbəsinin ərazisində mənzillə təmin olunan və faktiki yaşayan 464 məcburi köçkün ailəsi ilə telefon vasitəsilə keçirilib.

Respondentlər təsadüfi seçmə prinsipi əsasında seçilib.

### Sorğu anketi

Sorğu anketi 27 əsas və 9 demoqrafik sualdan ibarətdir. Respondentlərə bir neçə istiqamətdə suallar təqdim olunub:

I istiqamət - müharibə və onun nəticəsi ilə bağlı gözləntilər;

II istiqamət - məcburi köçkün ailələrinin azad edilmiş torpaqlara qayıdış planı;

III istiqamət - ermənilər və onlarla birgəyaşayışa münasibət;

IV istiqamət - Azərbaycan ordusu və dövlətinə münasibət.

### Sahə işi

Sorğu 2020-ci il oktyabrın 9-dan 13-dək olan dövrdə keçirilib.

### Etik prinsiplər

Sorğu keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Respondentlərin hər birinə sorğunu keçirən təşkilat, sorğunun məqsədi və qaydaları haqqında ətraflı məlumat verilib. Həmçinin, respondentlər sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istəmədikdə fikir bildirməmək, zəng olunan vaxt uyğun deyilsə, daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumatlandırılıblar.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

### Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram - SPSS (Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi)) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün müxtəlif testlərdən istifadə edilib.

**Qeyd:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

**Sorğuda əhatə edilən məcburi köçkün statusuna malik ailələrin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:**

Məcburi köçkün düşdüyünüz rayon (%-lə)




Məcburi köçkün düşməzdən əvvəl yaşadığınız yer



# SORĞU NƏTİCƏLƏRİNİN STATİSTİK VƏ ANALİTİK TƏHLİLİ

**Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibət**

Ermənistanın davamlı hərbi təxribatları fonunda 2020-ci ildə müharibənin daha geniş miqyasda başlayacağını bir il öncə 57.3% gözləyirdisə, 42.7%-in belə gözləntisi olmayıb. Gender və gözlənti arasında statistik əhəmiyyətli əlaqə müəyyən edilib. Qadınların 47.9%-i, kişilərin 62.7%-i erməni təxribatlarının davam etməsi fonunda 2020-ci ildə müharibənin başlayacağını gözləyirdi ($x2(1)=9.598$, $p<0.01$). Diqqət çəkən məqam odur ki, respondentlərin yaşı artdıqca onların 2020-ci ildə müharibənin daha geniş miqyasda başlayacağına dair gözləntisi də artır. 18-30 yaşarası respondentlərin 40%-də, 31-50 yaşarası respondentlərin 54.5%-də, 51 yaşdan yuxarı respondentlərin isə 63.1%-də bu gözlənti var.

Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatının geniş miqyasda başlamasına əsas səbəb kimi aşağıdakılar göstərilib:

- Son 3 ayda ermənilər tərəfindən törədilən hərbi təxribatlar (57.3%)
- Bir il bundan əvvəl Ermənistan baş nazirinin öz bəyanatları ilə "Qarabağ Ermənistandır". danışıqların faydasız olduğunu göstərməsi (48.5%)
- Xalqın torpaqların tezliklə işğaldan azad olunmasını istəməsi/tələb etməsi (46.3%)

Respondentlərin yalnız 15%-i hesab edir ki, Ermənistan tərəfindən ölkəmizdə terror aktları törətmək məqsədilə diversiya qrupunun göndərilməsi Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatının geniş miqyasda başlamasına əsas verən səbəblərdən biri olub.

Həm kişi, həm də qadın respondentlər genişmiqyaslı əks-həmlə əməliyyatlarının başlamasının əsas səbəbi kimi son 3 ayda ermənilər tərəfindən törədilən hərbi təxribatları göstəriblər. 31 yaşdan yuxarı respondentlərə görə də əsas səbəb bu olmuşdur.

Bir il bundan əvvəl Ermənistan baş nazirinin Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" ifadəsini əks-həmlə əməliyyatlarının geniş miqyasda başlamasına səbəb kimi görənlər arasında kişilər üstünlük təşkil edir. Kişilərin 55.6%-i, qadınların isə 36.1%-i bu fikri səsləndiriblər. STM tərəfindən keçirilən digər tədqiqatın nəticələrinə əsasən də deyə bilərik ki, hərbi-siyasi mövzularda kişilər qadınlarla müqayisədə daha çox məlumatlıdır. Bu variantı seçənlər arasında 18-31 yaş arasında olan respondentlər üstünlük təşkil edir (52%).

*Diaqram 1. Müharibə gözləntisi*

**Ermənistanın davam edən hərbi təxribatları fonunda müharibənin daha geniş miqyasda başlayacağını 1 il öncə gözləyirdinizmi?**




**Əks-həmlə əməliyyatının geniş miqyasda başlamasına səbəb nə oldu? (%-lə)**




*Diaqram 2. Əks-həmlə əməliyyatlarının səbəbləri*

Ermənistanın hərbi təxribatlarına cavab olaraq başlanan əks-həmlə əməliyyatlarının zamanlamasının dəyərləndirilməsində müəyyən fikir ayrılığı müşahidə edilib. Buna baxmayaraq əks-həmlə əməliyyatlarının tam vaxtında başladığını düşünənlər üstünlük təşkil edir. Respondentlərin 62.1%-i əks-həmlə əməliyyatların vaxtında başladığını, 33.4%-i isə daha əvvəl də başlaya biləcəyini düşünür. Əks-həmlə əməliyyatlarının başladığını düşünənlər arasında qadınlar üstünlük

***Diaqram 3.** Əks-həmlə əməliyyatlarının zamanlamasına münasibət*

təşkil edir. Qadınların 41.4%-i, kişilərin 28.8%-i əks-həmlə əməliyyatlarının gec başladığı fikrindədir. Bunun əksinə olaraq əks-həmlə əməliyyatlarının tam vaxtında başladığını düşünənlər kişilər arasında üstünlük təşkil edir. Kişilərin 69.2%-i, qadınların isə 49.7%-i bu əməliyyatların vaxtında başladığını bildirmişdir.

**Ermənistanın hərbi təxribatlarına cavab olaraq başlanan əks-həmlə əməliyyatlarının zamanlamasını necə dəyərləndirirsiniz?**




**Sizcə, torpaqlar danışıqlar yolu ilə qayıda bilərdimi?**




***Diaqram 4.** Danışıqların torpaqların qaytarılmasında rolu*

Diqqətə çatdıraq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 oktyabr 2020-ci il tarixdə xalqa müraciətində də Azərbaycanın bu münaqişənin həllində sülh tərəfdarı olduğunu bildirib.[1] Respondentlər münaqişənin sülh yolu ilə həllini istəsələr də, torpaqların azad olunması üçün müharibəni yeganə həll yolu kimi görürlər. Belə ki, respondentlərin mütləq əksəriyyəti (96.3%) torpaqların danışıqlar yolu ilə qaytarılacağını mümkünsüz hesab edir. Torpaqların qaytarılması istiqamətində danışıqları faydasız hesab edənlər arasında kişilər nisbətən üstünlük təşkil edir (kişilər - 98.6%, qadınlar - 92.3%). Təhsil səviyyəsindən asılı olmayaraq bütün respondentlər danışıqların heç bir faydasının olmayacağı fikrindədir. Bu nəticələr onu göstərir ki, istənilən halda əhalinin fikrincə, müharibə münaqişənin yeganə həll yoludur və müharibə davam etdirilməlidir.

Son 28 ildə Ermənistanla aparılan danışıqların heç bir nəticə verməməsinin səbəbləri kimi əsasən 3 amil qarşıya çıxır:

- *Qlobal güclərin problemin həllində maraqlı olmaması* (69%). Hər iki cinsin nümayəndələrinin əksəriyyəti bu fikri dəstəkləyib. Belə ki, kişilərin 70.5%-i, qadınların 66.3%-i qlobal güclərin münaqişənin həllində maraqlı olmaması fikrindədir. Həm gənclər (63.6%), həm də yaşlılar (71.3%) arasında qlobal güclərin münaqişənin həlli istiqamətində maraqlı olmamasını bildirənlər üstünlük təşkil edir.

- *ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti* (57.1%). Kişilərin 63.4%-i, qadınların 46.2%-i ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyətini münaqişənin həll olunmamasında əsas səbəb kimi görür. Yaşlı respondentlər arasında ATƏT-in Minsk Qrupunun fəaliyyətini səmərəsiz qiymətləndirənlər üstünlük təşkil edir (63.3%). Müvafiq olaraq digər yaş qrupları üçün bu göstərici 42.9%-dir.

- *Ermənistan dövlətinin işğalçılıq siyasəti* (72.7%).

Maraqlıdır ki, yalnız 13.6% respondent erməni diasporunun xaricdə güclü fəaliyyətini səbəblərdən biri kimi görür. Həmçinin, respondentlərin 11.4%-i beynəlxalq təşkilatlar tərəfindən Ermənistana kifayət qədər təzyiqin olmaması (sanksiyalar) fikrindədir.

***Diaqram 5.** Danışıqların fayda verməməsinin səbəbləri*

Beləliklə, respondentlərin münaqişə-

**Son 28 ildə Ermənistanla aparılan danışıqların heç bir nəticə verməməsinin səbəbləri nələr idi? (%-lə)**




*[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/42411*

nin danışıqlar yolu ilə həllinə olan münasibəti müəyyən mənada müharibənin davam etdirilməsinə olan istək və inamın göstəricisidir. Sorğuda əhatə edilmiş məcburi köçkünlərin böyük əksəriyyəti (84.1%) müharibənin davam etdirilməsini istəyir. Cəmi 13.2% respondent əks mövqedən çıxış edib.

Sorğuda iştirak edən məcburi köçkünlərin 95.5%-nin yaxın ətrafından (ailə üzvü və qohum/tanış) olan insanlar da hal-hazırda davam edən döyüşlərdə iştirak edir.

***Diaqram 6.*** *Müharibənin davamlılığına münasibət*




***Diaqram 7.*** *Müharibədə iştirak*




## Müharibənin nəticələrindən gözləntilər

Sorğuda iştirak edən respondentlərin 97.8%-i məcburi köçkün düşdükləri yaşayış yerlərinin (şəhər, qəsəbə, kənd) yaxın gələcəkdə azad olunacağına ümid edir. Sentyabrın 27-dən başlanan döyüşlər nəticəsində Azərbaycan ordusu insanların bu ümidini doğruldub. Yaşadıqları ərazi işğaldan azad olunmayan məcburi köçkünlərin mütləq əksəriyyətində də (97.5%) bu ümid var. Onlar yaxın gələcəkdə vaxtilə yaşadıqları ərazilərin də ordumuz tərəfindən işğaldan azad olunacağına inanırlar. Bütün sosial-demoqrafik qruplar üzrə respondentlərin mütləq əksəriyyətində yaşadıqları ərazilərin işğaldan azad olunması ilə bağlı ümid mövcuddur.

Ümumiyyətlə, müharibə nəticəsində işğal altında olan bütün ərazilərin azad olunacağına inam geniş yayılıb. Respondentlərin 93.8%-i yaxın gələcəkdə bütün ərazilərin işğaldan azad olunacağına inanır. Torpaqların yaxın gələcəkdə işğaldan azad olunacağına inanan kişilər (95.9) qadınlarla müqayisədə (89.9%) çoxluq təşkil edir. Respondentlərin yaşı artdıqca torpaqların azad olunacağına inam da artır. Belə ki, 40 yaşa qədər respondentlərin 90.7%-i, 41 yaşdan yuxarı respondentlərin 95.1%-i yaxın gələcəkdə bütün torpaqların işğaldan azad olunacağına inanır.

Respondentlərin mütləq əksəriyyəti (95.9%) heç bir xarici dövlətin dəstəyi olmadan Azərbaycan ordusunun ərazi bütövlüyümüzü bərpa edəcəyinə inanır. Qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə STM tərəfindən keçirilən bir çox tədqiqatlarda da orduya inam və etibar hakimiyyətin bütün qolları və idarəetmə institutlarına nisbətən daha yüksək səviyyədə olmuşdur.

***Diaqram 8.*** *Torpaqların işğaldan azad olunması ümidi*




***Diaqram 9.*** *İşğal altında olan torpaqların qayıtmasına inam*




***Diaqram 10.*** *Ordunun gücünə inam*



## Azad edilmiş torpaqlara "Qayıdış planı"

*Diaqram 11.* Azad olunan torpaqlara qayıdış




Ölkə əhalisi arasında məcburi köçkün statusuna malik ailələrin aid olduğu rayona qayıtması ilə bağlı müxtəlif fikirlər olsa da, məcburi köçkünlərin verdikləri cavab birmənalıdır. Sorğuda iştirak edən respondentlərin mütləq əksəriyyəti, başqa sözlə, 98%-i yaxın gələcəkdə işğaldan azad edilmiş rayonlarına qayıtmağı planlaşdırır. Qayıtmaqla bağlı planlar gənclər arasında da geniş yayılıb. Gənc respondentlərin 96%-i işğaldan azad olunan ərazilərə qayıtmağı planlaşdırır. Nəticələr əksər məcburi köçkün ailələrində qayıdış planının olduğunu göstərir. Respondentlərin böyük əksəriyyəti, yəni 83.2%-i bütün ailə üzvləri ilə birgə qayıtmağı planlaşdırır. Bu variantı seçməyənlərə gəlincə isə, 15.7% yalnız özünün, 10.2% yalnız həyat yoldaşının və 7.2% yalnız övladı, yaxud övladlarının geri qayıdacağını bildirib.

Döyüşlər başlayan vaxtdan ordumuzun uğurlu əməliyyatları sayəsində torpaqlarımızın işğaldan azad edilməsinin nəticəsidir ki, bütün ölkə əhalisində yüksək qələbə sevinci hiss olunur. Bu qələbələrin məcburi köçkünlərdə yaşatdığı hiss isə daha fərqlidir. Onlar sevinməklə yanaşı, evlərinə qayıtmağa tələsir. Respondentlərin demək olar ki hamısı (99%) bildirib ki, torpaqların azad olunması onlarda evə qayıtmaq əhval-ruhiyyəsi yaradıb.

Respondentlərin evlərinə qayıtmaqla bağlı ümidinin itməməsinin digər bir sübutunu isə onların evlərinə aid açarları, sənədləri 30 ilə yaxın müddətdə saxlamasıdır. Diqqət çəkən məqam budur ki, respondentlərin yarısı (51.1%) işğal altında olan ərazilərdəki evinin açarlarını/sənədlərini saxlamaqdadır.

*Diaqram 12.* “Evə qayıtmaq” əhvalı




*Diaqram 13.* Qayıdışın əsas simvolu “Ev açarları”



# İşğaldan azad olunan torpaqların vəziyyəti "keçmiş" və gələcək sakinlərinin gözü ilə

Azərbaycan Respuplikasnın Müdafiə Nazirliyi tərəfindən işğaldan azad olunan ərazilərimizdən çəkilən görüntülər video, foto formada müntəzəm olaraq KİV-də göstərilir. Respondentlərin 86%-i işğal altında olan, eləcə də artıq azad edilən ərazilərimizin hazırkı təsvirlərini (şəkil, video və s.) görsə də, maraqlıdır ki, 13%-i görməyib. Təsvirlərlə tanış olanların 80%-i həmin yerlərdə evlərin, yolların və s. vəziyyətini pis, 13%-i kafi kimi dəyərləndirb.

İnfrastrukturu pis qiymətləndirən respondentlərin mütləq əksəriyyəti (91%) bu qənaətdədir ki, Ermənistan hakimiyyəti həmin ərazilərdə uzun müddət qala bilməyəcəyini düşündüyündən sərmayə yatırmaqdan çəkinib. 62% respondent hesab edir ki, Ermənistanın işğal etdiyi bütün əraziləri abadlaşdırmaq üçün kifayət qədər vəsaiti yoxdur.

## İşğaldan azad olunan torpaqlarda ermənilərlə birgəyaşayışa münasibət

Məcburi köçkün statusuna malik ailələrin əsaslı hissəsi (72%) digər etnik azlıqlar kimi Qarabağda erməni əhalisi ilə birgəyaşayışın qeyri-mümkün olduğunu düşünsə də, 14% bu halın yalnız uzun müddətdən sonra mümkün olacağı qənaətindədir. Gənclər birmənalı olaraq ermənilərlə birgəyaşayışın mümkün olmayacağı qənaətindədir (80%). Ermənilərlə birgəyaşayışın mümkün olacağı fikri kişilər (16.6%) arasında qadınlarla (9.5%) müqayisədə daha çox yayılıb. Hər 20 respondentdən biri (5.2%) əvvəllər də o torpaqlarda ermənilərlə birgəyaşayış olduğuna görə gələcəkdə də ola biləcəyi fikrindədir.

90.3% respondent bildirib ki, şəxsən özü gələcəkdə o torpaqlarda ermənilərlə birlikdə yaşamazdı. Buna baxmayaraq, təxminən 8% respondent bunu edə biləcəyini bildirib.

İstər erməni xalqına, istərsə də erməni dövlətinə münasibət birmənalı olaraq pis olsa da (müvafiq olaraq, 94.8% və 99.4%), 4.5% respondentin erməni xalqına neytral münasibətdə olması onu göstərir ki, bəzi şəxslər üçün düşmən cəbhəsində xalq və dövlətin Qarabağ problemindəki mövqeyi ayrıdır.

**Diaqram 14.** *İşğaldan azad olunan torpaqların vəziyyətinin qiymətləndirilməsi*

**İşğal altında olan, eləcə də artıq azad edilən ərazilərimizin hazırkı təsvirlərini (şəkil, video və s.) görmüsünüzmü?**




**Həmin yerlərdə evlərin, yolların və s. vəziyyətini necə dəyərləndirirsiniz?**




**Sizcə, həmin yerlərin pis vəziyyətdə olmasının səbəbləri nələrdir?**




**Diaqram 15.** *Ermənilərlə həmin torpaqlarda yaşamağa münasibət*

**Sizcə, nə vaxtsa Qarabağda erməni əhalisi də digər millətlərin və etnik azlıqların nümayəndələri kimi Azərbaycanda yaşaya bilərmi?**




**Şəxsən siz gələcəkdə o torpaqlarda ermənilərlə birlikdə yaşayardınızmı?**



*Diaqram 16.*
*Ermənistan dövləti və ermənilərə münasibət*




Sentyabrda başlayan müharibənin əsas iki fiquru Azərbaycan ordusu və Ali Baş Komandandır. Prezident İlham Əliyevin strateji qərarları əsasında ordumuzun döyüş planını düzgün və uğurlu reallaşdırması torpaqlarımızın azad olunmasının əsas elementidir. Torpaqların işğaldan azad olunması əhalinin orduya, Ali Baş Komandana inam və etibarını daha da yüksəltməklə yanaşı, birliyi də gücləndirib.

Orduya inam və etibar yüksək olduğu kimi, respondentlərin mütləq əksəriyyəti müharibənin xalq-ordu birliyini gücləndirdiyi düşüncəsindədir. Bunun əyani sübutunu biz vətəndaşlarımızın orduya dəstək kampaniyası çərçivəsində də görə bilirik.

Qələbə xəbərlərinin birbaşa Ali Baş Komandan tərəfindən əhaliyə çatdırılması, prezidentin mütəmadi olaraq xalqa müraciəti xalqın prezidentin ətrafında daha sıx birləşməsinə səbəb olub. Respondentlərin mütləq əksəriyyəti (97.8%) müharibənin xalq-Ali Baş Komandan birliyini gücləndirdiyini düşünür. Maraqlı faktdır ki, yalnız 56.7% hesab edir ki, bu tarixi hadisə iqtidar-müxalifət birliyinə müsbət təsir edib. Nəzərə çatdıraq ki, iqtidar-müxalifət birliyi ilə bağlı təxminən 20% respondent cavab verməkdə çətinlik çəkib.

Azərbaycan xalqına məxsus olan birlik xüsusiyyətinin, çətin günlərdə hər kəsin bütün gücünü bir yerə toplamasının II Qarabağ müharibəsində yenidən şahidi olduq. Respondentlərin cavabları da real mənzərəni tam əks etdirir. Respondentlərin mütləq əksəriyyəti (95.5%) müharibənin milli birliyi gücləndirdiyi fikrindədir.

*Diaqram 17.*



## NƏTİCƏ

● Davam edən erməni təxribatları fonunda məcburi köçkünlərin yarısından çoxunda yaxın gələcəkdə müharibənin başlama gözləntisi var idi. Kişilərdə və yaşlı nəslin nümayəndələri arasında digərləri ilə müqayisədə bu gözlənti daha geniş yayılıb.

● İyul ayından başlayan və davam edən erməni təxribatları, Ermənistanın baş nazirinin bəyanatları əks-həmlə əməliyyatlarının geniş miqyas almasının əsas səbəblərindəndir. Həmçinin 30 ilə yaxın davam edən münaqişənin həllini əhalinin istəməsi və bu istəyini iyul ayında milli birlik yürüşünə çıxmaqla, vətəndaşların könüllü səfərbərliyə yazılmaqla nümayiş etdirməsi səbəblər sırasındadır.

● Məcburi köçkünlər arasında əks-həmlə əməliyyatının tam vaxtında başladığını düşünənlər üstünlük (respondentlərin üçdə ikisində) təşkil edir. Respondentlərin təxminən üçdə bir hissəsi əks-həmlə əməliyyatının başlayacağını düşünsə də, bu prosesin tez başladığını düşünən demək olar ki yoxdur.

● Respondentlərin bu düşüncəsini gücləndirən digər məqam onların mütləq əksəriyyətinin danışıqlar yolu ilə torpaqların qayıtmasının mümkün olmayacağına inanmasıdır. Respondentlər 28 ildə Ermənistanla danışığın faydasız olmasının da əsas səbəblərini qlobal güclərin bu problemin həllində maraqlı olmamasında, ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyətində və Ermənistanın işğalçılıq siyasətindən əl çəkməyəcəyində görürlər. İndiki şəraitdə cərəyan edən hadisələrə diqqət etdikdə də həm ATƏT-in Minsk Qrupunun, həm də Azərbaycanı sülhə səsləyən dövlətlərin Ermənistana hərbi dəstəyinin əhalinin bununla bağlı dediyi fikirlərin tam reallığa yaxın olduğunu görürük.

● Məcburi köçkünlərin əksəriyyəti müharibənin davam etdirilməsini istəyir. Respondentlərin mütləq əksəriyyəti davam edən müharibə nəticəsində bütün torpaqların azad olunacağına inanır. Həmçinin, onların buna inanmasına əsas səbəblərdən biri də ordumuza olan inam və etibarıdır. Onlar Azərbaycan ordusunun heç bir xarici dövlətin dəstəyi olmadan ərazi bütövlüyümüzü bərpa edəcəyinə inanırlar. Qeyd etmək lazımdır ki, əhalidə bu inam həm ordumuzun güclü maddi-texniki bazasının olmasından, həm əsgər və zabitlərimizin peşəkar olmaqla yanaşı vətənpərliyindən, əsas qərarverici qüvvə kimi Ali Baş Komandanın taktiki qərarlarına əminlikdən qaynaqlanır.

● Məcburi köçkünlərin əksəriyyətində torpaqların gələcəkdə işğaldan azad olunacağına ümid var. İnsanlarda ümidin olmasını sübut edən bir fakt da onların yarısının həmin ərazilərdəki evlərinin açarlarını, sənədlərini hələ də saxlamasıdır.

● Artıq yaşadıqları ərazi işğaldan azad olunan insanlar qayıtmaqla bağlı planlar qururlar. Torpaqların işğaldan azad edilməsi onlarda evlərinə qayıtmaq əhval-ruhiyəsi yaradıb. Onların böyük əksəriyyəti ailəsi ilə birgə həmin torpaqlara qısa müddətdə köçməyi planlaşdırır. Hər dörd nəfərdən biri isə ya yalnız özü, ya da ailə üzvündən kiminsə qayıdacağını bildirib. Gənclər arasında da qayıtmağı planlaşdıranlar üstünlük təşkil edir.

● İşğaldan azad olunan ərazilərdən çəkilən video, foto və oradan edilən reportajları əhalinin bütün üzvləri kimi məcburi köçkünlər də izləyirlər. Həmin ərazilərin əvvəlki vaxtı ilə indiki vaxtını müqayisə edən insanlar hal-hazırda yolların, evlərin, ümumilikdə kəndlərin vəziyyətini pis qiymətləndirirlər. Ermənistan dövləti tərəfindən 30 ilə yaxın bir müddətdə abadlaşdırmaq əvəzinə həmin ərazilərin talanmasının səbəblərini məcburi köçkünlər bir neçə amillə izah ediblər. Onların əksəriyyəti bunun əsas səbəbini Ermənistan hakimiyyətinin həmin ərazilərdə uzun müddət qala bilməyəcəyini düşündüyü üçün ora sərmayə qoymaqdan çəkinməsində görür. Ermənilər o torpaqları müxtəlif yollarla əldə etdikləri dəstək hesabına işğal etsələr də, uzun müddət qoruya bilməyəcəklərinin fərqində olublar. Respondentlərin digər qismi isə Ermənistanın işğal etdiyi əraziləri abadlaşdırmaq üçün kifayət qədər büdcəsinin olmamasını bildirib. Respondentlərin fikirləri reallığa yaxındır. Çünki Qafqaz regionunun ən kiçik dövlət büdcəsinə (təxminən 6 milyard manat) malik Ermənistanın bu vəsaitlə yenidənqurma işlərini apara bilməyəcəyi faktı göz önündədir.

● Respondentlərin böyük əksəriyyəti digər etnik millətlər kimi ermənilərlə o torpaqlarda birgəyaşayışın mümkün olmayacağı fikrindədir. Lakin sayları az olsa da, bunun mümkünlüyünü düşünənlər də mövcuddur. Onlar yenidən birgəyaşayışın olması üçün müəyyən qədər vaxt tələb olunduğu fikrindədirlər. Qeyd etmək la-

zımdır ki, nəzərə çarpmayan bir hissə isə hal-hazırda ermənilərin də digər xalqların nümayəndələri kimi ölkəmizdə dinc şəraitdə yaşadığını əsas gətirərək birgəyaşayışın ola biləcəyi düşüncəsindədir.

● Ölkəmizdə yaşayan ermənilərə qarşı əhalimiz tolerantlıq göstərsə də, ümumilikdə həm Ermənistan dövlətinə, həm də erməni xalqına münasibət birmənalı olaraq mənfidir.

● Müharibə həm ordunu, həm də Ali Baş Komandanı xalqla birləşdirdi. Həmçinin, milli birliyimiz, həmrəyliyimiz gücləndi. Xüsusən vurğulamaq lazımdır ki, ölkədə etnik azlıqlar da öz fəaliyyətləri ilə Azərbaycan xalqına, ordusuna və dövlətinə birlik, dəstək nümayiş etdirirlər. Diqqət çəkən məqam odur ki, müharibə vəziyyətində həm də iqtidarla müxalifət birləşdi. Başqa vaxtlarda iqtidarla ziddiyyətli mövqedə olan müxalifət nümayəndələri Ali Baş Komandan və ordu ətrafında birləşdilər. Azərbaycanda olan 52 müxalif partiyanın 50-nin hökumətə dəstək göstərməsi bunun əyani sübutudur.

● Nəticələrə əsasən demək olar ki, Ermənistanın davamlı həyata keçirdiyi hərbi təxribatlara cavab olaraq Azərbaycan ordusunun genişmiqyaslı əks-həmlə əməliyyatına keçməsi məcburi köçkünlərə öz torpaqlarına qayıtmaq, 30 ildən sonra həyatlarında yeni bir səhifə açmaq imkanı yaratdı.

Bütün cəmiyyət qələbə sevinci yaşasa da, məcburi köçkünlər ikiqat nikbin əhval-ruhiyədədir. Çünki onlar yalnız qələbəyə deyil, həm də evlərinə qayıdacaqlarına sevinirlər.

## QEYDLƏR

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az